## MÜQAYİSƏLİ DİLÇİLİK

**GÜLTƏKİN ƏLİYEVA***

# AZƏRBAYCAN VƏ RUS ƏDƏBİ DİLLƏRİNDƏ ƏLAVƏ SÖZ VƏ KONSTRUKSİYA FORMALARININ QRAMMATİK MÜNASİBƏTLƏRİ

**XÜLASƏ**

Məqalə sintaksisin aktual problemlərindən birinə həsr edilmişdir. Burada Azərbaycan və rus dillərində əlavə söz və konstruksiyaların müqayisəli təhlili aparılmışdır. Əlavə söz və əlavə konstruksiyaların linqvistik təsviri mübahisəli məsələlərə müəyyən qədər aydınlıq gətirməyə imkan vermişdir. Problem müxtəlif tipli sadə cümlələrin əsasında araşdırılır. Azərbaycan və rus dillərinin materialları əsasında əlavə konstruksiyaların ifadə vasitələri müqayisə edilir və öyrənilir, onların oxşar və fərqli xüsusiyyətləri müəyyənləşdirilir.

**Açar sözlər:** *sadə cümlələr, əlavə cümlələr, tarix, qrammatika, mətn.*

Müasir mətnlər cümlənin strukturunu mürəkkəbləşdirən müxtəlif *konstruksiyalarla zəngindir. Onların arasında əsas yeri əlavə konstruksiyalar tutur. Müasir dilçilikdə əlavə konstruksiyalar intonasiya ilə bağlanan, aydınlaşdırma mənası daşıyan, əsas cümlə ilə bağlı əlavə məlumat verən, düzəliş edən konstruksiyalar* kimi izah edilir. Əlaqəyə ümumi mənada yanaşmaq lazım gəlir. Əlavə sadə cümlələrlə nitqin əsas hissələrinin əlaqələri arasında ümumi və fərqli cəhətlər var. Dilçilikdə əlavələri aid olduqları sözlərlə birlikdə söz birləşmələri hesab edənlər var [Seyidov: 1992, s.199-202].

Əlavə konstruksiyaların təyinində iki nöqteyi-nəzər mövcuddur. Birincilər ona əsaslanır ki, bu elementlər cümlənin tərkibindən ayrılmışdır, yəni cümlə ilə bağlılığı yoxdur: "Əlavə konstruksiyalar əlavə məlumatları, ara-sıra qeydləri özündə əks etdirir və cümlənin "arasıkəsilməz sintaktik əlaqələrini" kəskin şəkildə ayırır" [Babaytseva: 1981, s.163], digərləri hesab edirlər ki, hər hansı bir cümlənin üzvü ilə potensial əlaqəsi olan elementlərə də elə əlavə konstruksiyalar aiddir. V.V.Babaytseva, N.S. Valgina qeyd edirlər ki, əlavə konstruksiyalar heç vaxt planlı şəkildə yaranmır. "…nitqdəki məqsədinə görə – əlavə məlumat ötürmək üçün – onlar yalnız cümlənin ortasında və ya sonunda yerləşə bilər. Ara sözlərdən, birləşmələrdən və cümlələrdən fərqli olaraq, əlavə konstruksiyalar cümlənin əvvəlində işlənə bilməzlər" [Babaytseva: 1981, s. 179; Valqina: 2000, s.252].

Əlavə cümlələr əlavə məlumat vermək məqsədi daşıyır. Məsələn: *Payızda (oktyabrın ortaları olardı) babamın vəziyyəti ağırlaşdı. Abbas müəllim – Allah ona rəhmət eləsin – hammının sevimlisi idi. Под их долгий, жаркий шепот (слова уже становились неразличимы) Рубахин уснул* [Makanin: 2006, s.8].

* AMEA Nəsimi ad. Dilçilik İnstitutu, filologiya üzrə fəlsəfə doktoru, dosent. *drgultekin.aliyeva@mail.ru*

Yazılı və şifahi nitqdə əlavə cümlələrdən geniş istifadə olunur. Cümlə daxilində işlədilən əlavə leksik və sintaktik vahidlər semantik cəhətdən son dərəcə rəngarəng olur [Veysəlli: 2014, s. 260]. Əlavə sadə cümlələrin obyektiv reallığın çox rəngarəng sahələrinə nüfuz etmək imkanları vardır. Ona görə də onları mənaca sistemləşdirmək, bir qəlibə yığmaq üçün lüzum yoxdur [Veysəlli: 2014, s.260].

Əlavə sözlərlə onların aid olduqları sözlər arasındakı münasibət bəzi hallarda əlavəli birləşmələr arasındakı münasibətə uyğun gəlsə də, prinsip etibarilə ondan ciddi şəkildə fərqlənir. Əvvəla, əlavə sözlə onun aid olduğu söz söz birləşməsi əmələ gətirmir. Digər tərəfdən, əlavə sözlər, əlavələrdən fərqli olaraq, daha sərbəstdir.

Əlavə cümlələrlə nitqin əsas hissəsi və ya əsas cümlələr arasında əlaqə formal vasitələrlə də ola bilər. Bu əlaqə heç bir formal vasitə olmadan da mümkün olur. Birinci halda əlavə cümlənin əsas hissəyə bağlılığı sıx olur. İkinci halda isə formal bağlılıq zəif olur. Rus dilçiliyində əlavə cümlələrin nitqin (mətnin) əsas hissəsi ilə iki əlaqə üsulu qeyd edilir. Bu əlaqə formaları əlavə cümlələrin növləri kimi də təqdim edilir. 1) Heç bir bağlayıcının iştirakı olmadan birləşən cümlələr. 2) Nisbi sözlərin, tabeli və ya tabesiz bağlayıcıların vasitəsilə birləşən cümlələr [Valqina: 2000, s.168].

V.V.Babaytseva və L.Y.Maksimov tərəfindən yazılmış «Современный русский язык» kitabında əlaqə məsələsi bir qədər başqa şəkildə verilir. Müəlliflərin fikrincə, "Əsas məlumat ilə əlaqənin xarakterinə görə əlavə konstruksiyaları iki qrupa bölmək olar: a) əsas məlumat ilə bağlı olmayan; b) əsas məlumat ilə bağlı olan" [Valqina: 2000, s.171]. Aydın məsələdir ki, mətnə daxil olan hər hansı bir söz və ya cümlə mətnin başqa hissələri ilə əlaqədar deyilsə, mənasız və artıq görünər, mətndə məntiqsizlik əmələ gətirər. Biz bu qeydi formal qrammatik əlaqə mənasında qəbul edirik. Bu cəhətdən əlavə cümlələrin bir qismi nisbətən müstəqil görünür və diqqətlə baxanda bütün hallarda formal qrammatik əlaqə vasitəsi olur və mətnin əsas hissələri ilə əlaqələnir. Rus dili materialları əsasında müəyyənləşən və yuxarıda göstərilən formal üsullar Azərbaycan dilində də özünü göstərir.

Heç bir formal əlaqə vasitəsi olmadan mətnin əsas hissələri ilə əlaqələnən əlavə cümlələrə nümunə: *XIX əsrin məşhur aşıqlarından Şəmkirli Aşıq Hüseynin "Sənə nə", "Qıy vurun, qoçaqlarım" kimi şeirləri müxəmməsə nümunə ola bilər* (***şairin birinci bəndləri dörd misra ilə məhdudlaşdırması heç də şeirin formasını dəyişmir***). *Məsələn: Şəmkirli Aşıq Söyünəm, mən burada yar eylədim, Urmu, Salmas, Marağa, İsfahanı zar eylədim, Gəzdim Çəçən, Çərkəzi, nə qorxdum, nə ar eylədim, Dəmir qapı Dərbənd, Quba, Gürcüstanı xar eylədim, Tülküsən, geridə dur, şiri pələngəm, sənə nə?* [Aşıq Hüseyn Şəmkirli: 2018, s.65, 28]. *В жаркое летнее утро (**это было в исходе июля**) разбудили нас ранее обыкновенного* [Aksakov: 1956, s.161]. Xüsusi bağlayıcı vasitələr olmasa da, əlavə sadə cümlələrin mətnin əsas hissəsi ilə əlaqəsi eyni tipli, eyni sıxlıqda deyil.

Əlavə sadə konstruksiyaların məzmunu əsas cümlə ilə bağlı olduğu kimi, bağlı olmaya da bilir. Burada əlavə cümlələr əsas cümlənin daxilində, ya da ondan sonra işlədilir. Bəzi əlavə sadə cümlələr tam müstəqil şəkildə qurulur və onların hər hansı

bir cümlə ilə bağlılığını göstərən heç bir əlamət olmur. Məsələn: *Ciddi komediya (Mən Sabit Rəhmanı ciddi komediya müəllifi hesab edirəm) mənalı gülüş vasitəsilə bu məqsədə xidmət etmişdir* [Arif: 1978, s.14]. *Поверьте (совесть в том порукой), Супружество нам будет мукой* [Puşkin: 2017, s.92]. Göründüyü kimi, söhbət komediyadan gedir, həmin hissəyə aid əlavə cümlədə isə dramaturq Sabit Rəhman haqqında fikir yürüdülür. Belə halda əsas hissə olmadan da əlavə cümlənin mənası anlaşıqlı olur. Əsas hissənin heç bir elementi nə bilavasitə, nə də başqa formada əlavə cümlədə təkrar edilmir. Əlavə cümlədə elə bir ünsür yoxdur ki, o, əlavə cümlənin hər hansı başqa söz və ya cümlə ilə əlaqəsini yada salsın. Topladığımız çoxsaylı faktlar göstərir ki, belə əlavə cümlələr o qədər də geniş yayılmamışdır.

Əlavə sadə cümlələrin əksəriyyətində əsas hissə ilə bağlılığı göstərən sözlər olur. Bu sözlərin çoxu əsas hissədə işlənmiş bu və ya digər sözün ekvivalenti olur, ya da əlavə cümlə əsas hissədəki fikrin nəticəsini bildirir. Bu kimi əlaqə göstəriciləri çoxdur. Bir neçəsini nümunə olaraq göstərək: *Sahil ədəbiyyatı sevmişdi (bu sevgi onda məktəbə ketdiyi ilk günlərdən meydana gəlmişdir). "Fərhad və Şirin" dramının ilk variantında Fərhadla Xosrovun görüş səhnəsi vardır (bu səhnə tamaşada göstərilmir. Azərbaycan mətnində hətta çap da olunmamışdır).* Bu mətinlərin əsas hissələri nəzərə alınmazsa, əlavə cümlələr, xüsusən onlardakı *bu sevgi, bu səhnə* ifadələri anlaşılmaz qalar. Həmin ifadələr göstərir ki, onların aid olduqları əlavə cümlələrdən əvvəl bu barədə söhbət gedib. Əlavə cümlələr həmin söhbətlərin bir növ davamı kimi işlədilir.

Əlavə cümlələrin mətnin əsas hissəsi ilə əlaqəsini təmin edən digər vasitələr də var. Məsələn: *Sabahkı iclasda hamı iştirak etməlidir (Burada baş müəllimlər istisna edilməlidir). Əli sol əllə (o, solaxay idi) yazmağa başladı. Алексей опоздал (а он прежде всегда приходил даже чуть раньше) и демонстративно громко, перебивая докладчика, извинился за опоздание.* Bir sıra hallarda heç bir xüsusi söz olmadan əlavə cümlənin məzmunu onun hər hansı bir cümlə ilə - nitqin əsas hissəsi ilə əlaqədar olduğunu göstərir. Məsələn: *İbrahimi dürüst (mən onun dürüstlüyünə şübhə etmirəm) bir insan kimi tanıyırdılar. На следующее утро Антон (как ни печально это осознавать) решил порвать с Инной и уехать на край света.*

Əlavə sadə cümlələr müxtəlif quruluşlarda olur. Onlar bir sözdən, söz birləşməsindən, sadə və ya mürəkkəb cümlədən ibarət olur. *Отец лишился обыкновенной своей твёрдости, и горесть его (**обыкновенно немая**) изливалась в горьких жалобах* [Puşkin: 2021, s.23]. *Мы вышли из дома (**метель уже улеглась**) и наслаждались морозным воздухом и изумительными картинами заснеженного города.*

Əlavə cümlələr bəzən müxtəlif bağlayıcıların (*və ya, ki, çünki* və s.) vasitəsilə əsas cümləyə bağlanır.

a) Tabesizlik bağlayıcıları ilə. Məsələn: *Bura gələrkən Sevilə rast gəldiyimi söylədim. (**lakin Sevilin mənə qarşı kini barədə heç nə danışmadım**). Цезарь (**так звали льва в звернице**) спит и тихо взвизгивает во сне* [Куприн: 1970, s. 247].

*Когда все кончилось* ***(бой длился около часу)****, начдив сел на коня и шагом поехал по равнине* [Толстой: 1946, s.202]. *И каждый вечер, в час назначенный* ***(иль это только сниться мне?)*** *девичий стань, шелками схваченный, в туманном движется окне* [Блок: 1971, s.92].

b) Tabelilik bağlayıcıları ilə. Məsələn: *Bir dəfə Sara* ***(ki, anam onu özündən çox istəyirdi)*** *bizə gəldi. Bu insanlar o qədər kamala çatmışdılar daha nədən yazım yox* ***(çünki o öz-özlüyündə həll edilmişdir)****, necə yazım fikirləşirdilər. Ədəbi yaradıcılıq* ***(əgər xalq ədabiyyatını nəzərə almasaq)*** *çox dar mühitdə yazılırdı. Надо сказать, что квартира эта – N 50 – давно уже пользовалась если не плохой, то, во всяком случае, странной репутацией* [Bulqakov: 2021, s.293]. Bu misallarda ***ki*** olmasa da olar. Lakin *ki* bağlayıcısı əlaqəni möhkəmləndirir. *Çünki, əgər* bağlayıcıları əlavə cümlələrin mətnin əsas hissəsinə bağlılıqlarının sıxlığını artırmaqla bərabər, əlavə cümlələrin asılılığına da təsir göstərir. *Это был Пётр Герасимович* ***(Нехлюдов никогда не знал и даже немного хвастал тем, что не знает его фамилии)****, бывший учитель детей его сестры* [Tolstoy: 2006, s.345].

Əlavə cümlələrdən memuar və məktublarda, felyeton janrında, dram əsərlərində daha çox istifadə edilir. Dram əsərlərində obrazın müxtəlif hərəkətləri, davranışı, jest və mimikası, başqa obrazlarla münasibəti, yerişi, duruşu, danışıq tərzi və s. əlavə cümlələrlə verilir. Çox vaxt personajın adından sonra onun kimə üz tutduğu, hansı əhvali-ruhiyyə ilə, nə tərzdə danışdığı barədə məlumat verilir [Kazımov: 2000, s.402]. Məsələn: *Ox, küskün tale, küskün tale!* ***(Ağlayaraq dizi üstə düşür)*** [Cəfər Cabbarlı: 1983, s.23]. *Быть может* ***(лестная надежда!)****, укажет будущий невежда на мой прославленный портрет и молвит: «То-то был Поэт!»* [Puşkin: 2017, s.166]. *Медленно Рубахин притягивал юношу к себе ближе* ***(а глаз не отрывал от левой тропы, от подтягивающейся цепочки отряда)*** [Makanin: 2009, s.16]. *Теперь, когда с посещения Даши прошло больше недели, ему стало казаться удивительным, как могла незаметно* ***(он с ней не сразу даже и поздоровался)*** *и просто* ***(вошла, села, положила муфту на колени)*** *появиться в их оголтелой квартире эта девушка* [Makanin: 2009. s.93]. *Солдаты* ***(их было трое)*** *ели, не обращая внимания на Пьера* [Толстой: 1946, s.289]. *Булочники –* ***их было четверо*** *– держались в стороне от нас* [Горький: 2011, s.8].

Bütün bunlar göstərir ki, əlavə sözlər və əlavə cümlələr konkret sistemə düşməyən, müxtəlif əlaqə formaları ilə nitqin əsas hissəsinə bağlanır. Bu əlaqə forma və vasitələrinin bir qismi yazılı və şifahi nitq üçün eyni olur. Məsələn, əlavə söz və əlavə cümləıəri nitqin əsas hissəsi ilə bağlayan bağlayıcılar və bu əlaqəyə xidmət edən başqa yardımçı sözlər həm yazılır, həm də deyilir. Lakin fərqli cəhətləri də var. Yazılı nitqdə xüsusi işarələr (mötərizə, tire) onları nitqin əsas hissəsindən ayırır. Şifahi nitqdə isə bu işarələr görünmür. Burada həmin rolu intonasiya oynayır. Çıxış edən əlavə söz və əlavə cümləni ifadə edərkən səsin tonunu dəyişir. Onları bir qədər aşağı tonla ifadə edir və burada fasilədən də istifadə olunur. Burada fasilədən də istifadə edilir. Bir ümumi əlaqə də əlavə söz və əlavə cümlələrlə nitqin əsas hissəsi arasındakı məna

uyğunlaşmasıdır. Bu uyuşma olmasa, onlar məntiqsiz əlavələr təsiri bağışlayır. Əlavə cümlələr daxil olduğu cümlənin üzvləri ilə sintaktik əlaqəyə girə bilmir və yalnız mənaca əlaqələnir. Şifahi nitqdə əsas cümlə ilə əlaqə intonasiya vasitəsilə yaradılır. Əlavə cümlələr bütövlükdə cümlənin məzmunu, yaxud da cümlədə bir sözlə bağlı olur. Əlavə konstruksiyalar söz, söz birləşməsi və cümlə şəklində formalaşır. Məsələn: *Стреляли в упор; проломив ребра, пули вынесли наружу все его нутро – на земле (в земле) лежало крошево ребер, на них печень, почки, круги кишок, все в большой стылой луже крови. А его нутро, вместе с пулями, лежало в земле. Когда боевики набегали, Бояров толкнул свой приемничек в сторону (своего верного дружка), чтобы тот сполз с бугра в траву. Операция по разоружению (еще с ермоловских времен она и называлась «подковой») сводилась к тому, что боевиков окружали, но так и не замыкали окружение до конца. Оставляли один-единственный выход.*

Əlavə konstruksiyalar əsas cümlədən vergül, tire və ya mötərizə ilə ayrılır. Məsələn: *Кати не было дома (она пошла к подруге за учебником по химии) поэтому мама тайком смогла проверить её дневник.*

Məktublarda, bədii əsərlərdə əlavə cümlələr mötərizə, bəzən tire ilə ayrılır. Məsələn: *Дистанты и альты (иногда басы и тенора) в эти хоры набирались из учеников* [Pomyalovskiy: 2008, s.86]. - *Господа, – сказал он (голос его был спокоен, хотя тоном ниже обыкновенного). - Господа, – к чему пустые споры!* [Lermontov: 2015, s.156]. *Тут – делать нечего – друзья поцеловались* [Krılov: 1951, s. 46]. *Но чудное дело! – превратившись англомана, Павел Петрович стал в то же время патриотом...* [Turgenev: 1981, s. 124]. *Аннушка молча покинула свою засаду, тихо обошла кругом – её детские ножки едва шумели по густой траве – и вышла из чаши подле самого старика* [Turgenev: 1974, s.65]. *И – бывают же чудеса – подковылял Воропаев* [Павленко: 1948, s.302]. *Кругом – не обнять глазом – снежняя целена* [Шолохов: 2015, s.269].

Çox nadir hallarda əlavə cümlələr vergül ilə ayrılır. Məsələn: *Мне показалась даже, а может быть оно и в самом деле было так, что все стали к нам ласковее* [Aksakov: 1956, s.56]. *Экспонаты Биологического музея, а их свыше двух тысяч, рассказывают о животном мире нашей планеты. Валерия – так звали девушку, от тоски по которой я сбежал из деревни в Москву, – слушала меня, мечтательно глядела перед собой* [Soljenitsina: 2018, s.14].

Əlavə cümlələr sintaktik cəhətdən əsas cümlə ilə bağlı olmadıqlarına görə istənilən zaman onun tərkibindən çıxarıla bilər. Əlavə konstruksiyalar cümlənin əvvəlində deyil, yalnız ortasında, nadir hallarda isə əsas cümlənin sonunda yerləşir. Bu isə onların cümlədə spontanlığı ilə izah olunur. Belə ki adətən əlavə cümlələr əvvəldən düşünülməyən, nitq və ya yazı zamanı yaranan əlavə məlumat xarakteri daşıyır. Məhz bu səbəbdən əlavə konstruksiyalar şifahi nitqdə də daha çox yayılmış və müəllifin xüsusi üslubu kimi bədii ədəbiyyatda geniş işlədilir.

Şifahi nitqdə əlavə konstruksiyalar intonasiya, yazıda isə durğu işarələri (mötərizə, vergül və ya tire) ilə ayrılır. Əlavə konstruksiyalı mətnlərdə bütün vacib işarələr (vergül, sual, nida, üç nöqtə, iki nöqtə) saxlanılır.

Əlavə konstruksiyaların ifadə vasitələri çox müxtəlifdir. Bir sözdən, söz birləşməsi, cümlə və ya hətta bütöv bir abzasdan ibarət ola bilir. Əlavə konstruksiyalar mənasından asılı olaraq, nitqin ümumi ekspressiv fonuna təsir göstərir və ya xüsusi bir duyğu ifadə edir.

## ƏDƏBİYYAT


1. Аксаков С.Т. Собрание сочинений. Том 4. Москва: 1956. 667 с.
2. Aşıq Hüseyn Şəmkirli. Divani-müxəmməsləri. Bakı: 2018. 92 s.
3. Бабайцева В.В., Максимов Л.Ю. Современный русский язык // Часть 3. Москва: – 1981. – 297 с.
4. Блок А. Стихотворения и поемы. Башкирия: 1971. 224 с.
5. Булгаков М.А. Мастер и Маргарита. Москва: 2021. 480 с.
6. Cabbarlı C. Od gəlini. Bakı: – 1983. 51 s.
7. Kazımov Q.Ş. Müasir Azərbaycan dili // Sintaksis. Bakı: 2007. 496 s.
8. Крылов И.А. Басни. Литва: – 1951, 80 с.
9. Куприн А.И. Собрание сочинений в 9-и томах. Т.1. Москва: 1970. 350 с.
10. Горький М. Двадцать шесть и одна. Москва: 2011. 17 с.
11. Грамматика русского языка // Т. II. Синтаксис. Часть 2. Москва: 1954. – 326 с.
12. Лермонтов М.Ю. Герой нашего времени. Москва: – 2015, 224 с.
13. Маканин В.С. Кавказский пленный. Москва: 2009. 18 с.
14. Маканин В.С. Место под солнцем. Москва: 1984. 321 с.
15. Павленко П.А. Счастье. Москва: – 1948. 312 с.
16. Помяловский Н.Г. Очерки бурсы. Москва: 2008. 168 с.
17. Пушкин А.С. Капитанская дочка. Москва: 2021. 352 с.
18. Пушкин А.С. Роман в стихах Евгений Онегин // Глава IV. Москва: 2017, 348 с.
19. Seyidov Y.M. Azərbaycan dilində söz birləşmələri//Bakı: 1992. 340 s.
20. Səfiyev A.M. Sabit Rəhmanın komediyaları. Bakı: 1978. 160 s.
21. Солженицына Н.Д. Личность и творчество А.И.Солженицына в современном искусстве и литературе. Материалы Международной научной конференции, посвящённой столетию со дня рождения А.И.Солженицына. 15-17 марта 2017. Москва: – 2018. – 408 с.
22. Шолохов М. Поднятая целена. Москва: 2015, 840 с.
23. Толстой А.Н. Полное собрание сочинений: Том 9. Москва: 1946. 240 с
24. Толстой Л.Н. Воскресение. Москва: 2015. 495 с.
25. Тургенев И.С. Дворянское гнездо. Москва: – 1981, – 160 с.

26. Тургенев И.С. Записки охотника. Повести и рассказы. Краснодар: – 1974. 184 с.

27. Валгина Н.С. Синтаксис современного русского языка // Учебник для вузов. Москва: 2000. 432с.

28. Veysəlli F.Y., Kazımov Q.Ş., Kazımov İ.B., Məmmədov A.Y. Azərbaycan dilinin funksional qrammatikası: Sintaqmatika, söz birləşməsi və sadə cümlə sintaksisi. III cild. Bakı: 2014. 505 s.

**Gultakin ALIYEVA**

**GRAMMATIC RELATIONSHIPS OF INTRODUCTORY WORDS AND STRUCTURES FORMS IN AZERBAIJANI AND RUSSIAN LITERARY LANGUAGES**

**SUMMARY**

The article is devoted to one of the actual problems of syntax. Comparative analysis of additional words and additional constructions in the Azerbaijani and Russian languages carried out in this paper. Linguistic description of additional words and additional constructions this thesis has given allows to bring some clarity to the controversial issues. This problem is investigated on the basis of different types of simple sentences. On the basis of materials of the Azerbaijani and Russian languages the means of expressing of additional constructions are compared and studied their similar and different features are determined.

**Key words***: simple sentences, additional sentences, history, grammatical, text*

**Гюльтекин АЛИЕВА**

**ГРАММАТИЧЕСКИЕ ОТНОШЕНИЯ ФОРМ ВВОДНЫХ СЛОВ И КОНСТРУКЦИЙ В АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКАХ**

**РЕЗЮМЕ**

Статья посвящена одной из актуальных проблем синтаксиса. Здесь в азербайджанском и русском языках проведен сравнительный анализ вводных слов и конструкций. Лингвистическое описание вводных слов и конструкций позволяет внести некоторую ясность в спорные вопросы. Данная проблема исследуется на основе различных типов простых предложений. На материале азербайджанского и русского языков сравниваются и изучаются средства выражения вводных конструкций, выявляются их сходные и различительные особенности.

**Ключевые слова***: простые предложения, дополнительные предложения, история, грамматика, текст*